*Yenilənmə tarixi:*
*2014-cü ilin oktyabr ayı*



**Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin**
**İQTİSADİ İSLAHATLAR ELMİ TƏDQİQAT İNSTİTUTUNA RƏHBƏRLİK ETMİŞ DİREKTORLAR**

## i.e.n. Saleh SƏMƏDOV

*(1965-1968-ci illər)*

**Saleh İsmayıl oğlu Səmədov (1911-1990)** 1911-ci il may ayının 2-də Şamaxı şəhərində anadan olmuşdur.

Əmək fəaliyyətinə Şamaxı rayon taxıl birliyində baş hesabdar vəzifəsi ilə başlamışdır. 1931-ci ildə K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olmuş, 1936-cı ildə oranı bitirmişdir. 1936-cı ildə Azərbaycan SSR Xalq Təsərrüfatının orta ixtisas təhsilindəki uçot işlərində olan tələbatını nəzərə alaraq ilk iqtisad yönümlü “Bakı Statistika Texnikumu” təşkil edilmiş, müəllim kollektivi toplanılmışdır. Texnikumun direktoru vəzifəsinə Saleh Səmədov təyin edilmiş və eyni zamanda K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda müəllim kimi fəaliyyət göstərmişdir.

1941-ci ildən 1946-cı ilin fevral ayınadək Böyük Vətən Müharibəsində iştirak etmiş, müharibə dövründə çavuş rütbəsindən kapitan rütbəsinə kimi yüksəlmişdir. Müharibədə iştirakı zamanı “Qafqazın müdafiəsi”, “Berlinin alınması” medalları ilə təltif olunmuşdur.

1946-cı ildə müharibə illərində fəaliyyətini dayandırmış texnikuma 1958-ci ilədək yenidən rəhbərlik etmişdir. Həm də Ümumittifaq qiyabi İqtisadi İnstitutunun direktoru olmuşdur. 1953-cü ilin aprel ayından 1958-ci ilədək K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda “Mühasibat uçotu” kafedrasının müdiri vəzifəsində işləmişdir. 1954-cü ildə “Tbilisi Dövlət Universitetində” namizədlik dissertasiyasını müdafiə etmişdir.

1958-ci ildən 1961-ci ilədək Bakı Ali Partiya Məktəbində “İqtisadiyyat” kafedrasının dosenti işləmişdir. 1961-ci ilin dekabr ayından 1965-ci ilin yanvar ayınadək “İqtisadiyyat” fakültəsində dekan müavini kimi fəaliyyət göstərmişdir.

1965-ci ildə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında yeni təşkil edilən Elmi Tədqiqat İqtisadiyyat İnstitutunun ilk direktoru təyin edilmişdir. 1970-ci ildə “Fədakar əməyə görə” medalı ilə təltif olunmuşdur.

1969-cu ildən ömrünün son günlərinədək D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda kafedra müdiri, kafedranın dosenti işləmişdir.

1981-ci il 30 iyun tarixində Azərbaycan SSR Ali Soveti Prezidiumunun qərarı ilə Saleh İsmayıl oğlu Səmədov “Əməkdar ali məktəb işçisi” adına layiq görülmüşdür.

Saleh İsmayıl oğlu Səmədov qanlı 20 yanvar hadisələrinə tab gətirməmiş və 1990-cı il 23 yanvar tarixində ömrünün 79-cu qışında onun ürəyi əbədi dayanmışdır.